| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 30.08.2013 |
| QEYDİYYAT NÖMRƏSİ | 3108 |
| ADI | Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsi üzrə tələbələrinə təqaüdlərin verilməsi haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 31-08-2013, Nəşr nömrəsi: 190), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-08-2013, Nəşr nömrəsi: 08, Maddə nömrəsi: 988) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 01.09.2013 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 190.050.010 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | 32201308303108 |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 02.09.2013 |

**Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması, *həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsi üzrə tələbələrinə təqaüdlərin verilməsi* haqqında**[1]

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət büdcəsinin vəsaiti hesabına təhsil alan doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə dövlət qayğısını artırmaq və onların sosial müdafiəsini daha da gücləndirmək məqsədilə **qərara alıram:**

~~1. Dövlət büdcəsinin vəsaiti hesabına təhsil alan doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələri və şagirdləri üçün müəyyən edilmiş təqaüdlərin məbləği artırılaraq, *həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsi üzrə tələbələrinə təqaüdlər* aşağıdakı məbləğlərdə müəyyən edilsin:~~[2]

~~1.1. Doktorantura pilləsi üzrə:~~
~~elmlər doktoru hazırlığı üzrə doktorantlara - *266* manat~~
~~fəlsəfə doktoru hazırlığı üzrə doktorantlara - *145* manat~~[3]

~~*1.2. ali təhsil müəssisələrində və Azərbaycan Milli Elmlər Akademiyasında:*~~[4]
~~*adlı təqaüd alan tələbələrə – 145 manat*~~

~~*magistratura səviyyəsi üzrə:*~~
~~*akademik göstəriciləri 91-100 bal olan tələbələrə – 127 manat*~~
~~*akademik göstəriciləri 71-100 bal olan tələbələrə – 103 manat*~~
~~*akademik göstəriciləri 51-100 bal olan tələbələrə – 67 manat*~~

~~*bakalavriat səviyyəsi üzrə:*~~
~~*akademik göstəriciləri 91-100 bal olan tələbələrə – 115 manat*~~
~~*akademik göstəriciləri 71-100 bal olan tələbələrə – 97 manat*~~
~~*akademik göstəriciləri 51-100 bal olan tələbələrə – 61 manat*~~

~~*1.3. orta ixtisas təhsili müəssisələrində:*~~
~~*akademik göstəriciləri 91-100 bal olan tələbələrə – 61 manat*~~
~~*akademik göstəriciləri 71-100 bal olan tələbələrə – 48 manat*~~
~~*akademik göstəriciləri 51-100 bal olan tələbələrə – 42 manat*~~[5]

~~1.4. İlk peşə-ixtisas təhsili müəssisələrinin şagirdlərinə – *42* manat~~[6]

~~*1-1. Azərbaycan Respublikasının ali təhsil və orta ixtisas təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində əyani təhsil alan tələbələrə dövlət büdcəsinin vəsaiti hesabına təqaüdlər dövlət sifarişi, dövlət hesabına və ödənişli əsaslarla təhsil almalarından asılı olmayaraq, ümumi orta müvəffəqiyyət göstəricisi nəzərə alınmaqla, fənlər üzrə akademik nailiyyətlərinə görə bu Sərəncamın 1.2-ci və 1.3-cü bəndləri ilə müəyyən edilmiş məbləğlərdə ödənilsin.*~~[7]

~~*2. Müəyyən edilsin ki, təqaüdlərin ödənilməsi, ali təhsil və orta ixtisas təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində ixtisaslar üzrə dövlət sifarişi və dövlət hesabına təhsilalanların sayı saxlanılmaqla, dövlət büdcəsindən təqaüd üçün ayrılan vəsait həddində həyata keçirilir.*~~[8]

3. "Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 6 sentyabr tarixli 1085 nömrəli Sərəncamı (3-cü hissəsi istisna olmaqla) ləğv edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

5. Bu Sərəncam 2013-cü il sentyabrın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 avqust 2013-cü il
3108

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**


1. 10 noyabr 2015-ci il tarixli **1516** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti, 11 noyabr 2015-ci il, 247 ; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 11, maddə 1339** )
2. 25 may 2017-ci il tarixli **2912** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 27 may 2017-ci il, 113, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5 , maddə 934**)
3. 15 may 2018-ci il tarixli **85** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5 , maddə 1022**)

4. 14 fevral 2019-cu il tarixli **961** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 15 fevral 2019-cu il, 37, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2 , maddə 291**)
5. 1 mart 2019-cu il tarixli **1002** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti, 3 mart 2019-cu il, 51, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 442** )

**SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

-

---

[1] 25 may 2017-ci il tarixli **2912** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 27 may 2017-ci il, 113, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5 , maddə 934**) ilə adında "**artırılması**" sözündən sonra **", həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsi üzrə tələbələrinə təqaüdlərin verilməsi**" sözləri əlavə edilmişdir.

[2] 25 may 2017-ci il tarixli **2912** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 27 may 2017-ci il, 113, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5 , maddə 934**) ilə 1-ci hissədə "**artırılaraq**" sözündən sonra "**, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsi üzrə tələbələrinə təqaüdlər**" sözləri əlavə edilmişdir.

14 fevral 2019-cu il tarixli **961** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 15 fevral 2019-cu il, 37, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2 , maddə 291**) ilə 1-ci, 1-1-ci və 2-ci hissələri ləğv edilmişdir.

[3] 15 may 2018-ci il tarixli **85** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5 , maddə 1022**) ilə 1.1-ci bəndin ikinci abzasında "**220**" rəqəmləri "**266**" rəqəmləri ilə və üçüncü abzasında "**120**" rəqəmləri "**145**" rəqəmləri ilə əvəz edilmişdir.

[4] 10 noyabr 2015-ci il tarixli **1516** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti, 11 noyabr 2015-ci il, 247; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 11, maddə 1339** ) ilə 1.2-ci və 1.3-cü bəndlər yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~1.2. Ali təhsil müəssisələrində:~~
~~adlı təqaüd alan tələbələrə – 120 manat~~
~~magistr pilləsi üzrə:~~
~~əla qiymətlərlə oxuyan tələbələrə – 105 manat~~
~~əla və yaxşı qiymətlərlə oxuyan tələbələrə – 85 manat~~
~~yaxşı-kafi qiymətlərlə oxuyan tələbələrə – 55 manat~~
~~bakalavr pilləsi üzrə:~~
~~əla qiymətlərlə oxuyan tələbələrə – 95 manat~~
~~əla və yaxşı qiymətlərlə oxuyan tələbələrə – 80 manat~~
~~yaxşı-kafi qiymətlərlə oxuyan tələbələrə – 50 manat~~

~~1.3. Orta ixtisas təhsili müəssisələrində:~~
~~əla qiymətlərlə oxuyan tələbələrə – 50 manat~~
~~əla və yaxşı qiymətlərlə oxuyan tələbələrə – 40 manat~~
~~yaxşı-kafi qiymətlərlə oxuyan tələbələrə – 35 manat~~

25 may 2017-ci il tarixli **2912** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 27 may 2017-ci il, 113, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5 , maddə 934**) ilə 1.2-ci bənddə "**müəssisələrində**" sözündən sonra "**və Azərbaycan Milli Elmlər Akademiyasında**" sözləri əlavə edilmişdir.

15 may 2018-ci il tarixli **85** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5 , maddə 1022**) ilə 1.2-ci bəndin ikinci abzasında "**120**" rəqəmləri "**145**" rəqəmləri ilə, dördüncü abzasında "**105**" rəqəmləri "**127**" rəqəmləri ilə, beşinci abzasında "**85**" rəqəmləri "**103**" rəqəmləri ilə, altıncı abzasında "**55**" rəqəmləri "**67**" rəqəmləri ilə, səkkizinci abzasında "**95**" rəqəmləri "**115**" rəqəmləri ilə, doqquzuncu abzasında "**80**" rəqəmləri "**97**" rəqəmləri ilə və onuncu abzasında "**50**" rəqəmləri "**61**" rəqəmləri ilə əvəz edilmişdir.

[5] 15 may 2018-ci il tarixli **85** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5 , maddə 1022**) ilə 1.3-cü bəndin ikinci abzasında "**50**" rəqəmləri "**61**" rəqəmləri ilə, üçüncü abzasında "**40**" rəqəmləri "**48**" rəqəmləri ilə və dördüncü abzasında "**35**" rəqəmləri "**42**" rəqəmləri ilə əvəz edilmişdir.

[6] 15 may 2018-ci il tarixli **85** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5 , maddə 1022**) ilə 1.4-cü bənddə "**35**" rəqəmləri "**42**" rəqəmləri ilə əvəz edilmişdir.

[7] 10 noyabr 2015-ci il tarixli **1516** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti, 11 noyabr 2015-ci il, 247; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 11, maddə 1339** ) ilə yeni məzmunda 1-1-ci hissə əlavə edilmişdir.

25 may 2017-ci il tarixli **2912** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 27 may 2017-ci il, 113, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5 , maddə 934**) ilə 1-1-ci və 2-ci hissələrdə "**müəssisələrində**" sözündən sonra "**, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində**" sözləri əlavə edilmişdir.

[8] 10 noyabr 2015-ci il tarixli **1516** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti, 11 noyabr 2015-ci il, 247; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 11, maddə 1339** ) ilə 2-ci hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2. Təqaüdlərin ödənilməsi dövlət büdcəsində həmin məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilsin.~~